# Bayrağımız işğal edilmiş bütün torpaqlarımızda qaldırılacaq



***Prezident İlham Əliyevin əzmli və qətiyyətli siyasətçi, uzaqgörən, praqmatik düşüncəli dövlət başçısı olduğu bir daha təsdiqləndi. Ermənistanın havadarları olan dövlətlər və böyük güclər tərəfindən təzyiqlərə baxmayaraq, möhtərəm Prezidentimiz öz prinsipiallığını və qəti əzmini bir daha nümayiş etdirdi. İşğalçı Ermənistan ordusunun sentyabrın 27- dən başladığı genişmiqyaslı təxribatın qarşısı qətiyyətlə alındı. Üstəlik, 27 il işğal altında qalan bir sıra rayon, qəsəbə və kəndlərimiz, o cümlədən strateji əhəmiyyətli yüksəkliklər rəşadətli ordumuz tərəfindən düşməndən azad edildi.***

Oktyabrın 9-da Prezident İlham Əliyev xalqa müraciətində bu barədə ətraflı məlumat verdi . Bildirdi ki, əks-hücum əməliyyatları ərzində qısa müddətdə Azərbaycan Ordusunun Füzuli və Cəbrayıl rayonlarının 20-yə yaxın kəndini işğaldan azad etməsi, Suqovuşan (Madagiz) yüksəkliyini ələ keçirməsi, Suqovuşan su anbarından Azərbaycan rayonlarına suyun buraxılması, Ermənistan silahlı qüvvələrinin artilleriya və digər ağır texnikalarının dronlar vasitəsilə müəyyənləşdirilərək dəqiq atəşlə məhv edilməsi, ordu bölmələri arasında rabitəsizlik, nizam-intizamın pozulması, döyüşü özbaşına tərketmə hallarının artması artıq Ermənistanın döyüşmək gücündə olmadığını göstərdi. Dövlət başçısı Hadrut qəsəbəsi, Çaylı, Yuxarı Güzlər, Qışlaq, Qaracalı, Əfəndilər, Süleymanlı, Sur və Güləzəli kəndlərinin də işğaldan azad edildiyini bildirdi.

Artlq Ermənistan rəhbərliyi vəziyyətin getdikcə ağırlaşdığını açıq şəkildə hiss edirdi. Ona görə də Ermənistanın baş naziri Nikol Paşinyan Yerevanda keçirilən Avrasiya İqtisadi Birliyinin hökumətlərarası şuranın iclasında “Ermənistan Qarabağla bağlı sülh danışıqlarına başlamağa hazırdır” bəyanatını verdi.

Oktyabrın 9- da Rusiyanın paytaxtı Moskvada keçirilən Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşündə qəbul edilən bəyanat da təsdiqlədi ki, Ermənistan rəhbərliyinin danışıqlar prosesini davam etdirməkdən başqa ayrı yolu qalmayıb. Məlum bəyanatda bildirlir ki, 2020-ci ilin 10 oktyabr saat 12:00-dan etibarən humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan edilir.

Bu, heç kimi ruhdan salmamalıdır. Dövlətimizin başçısı xalqa müraciətində də qəti mövqeyini bidirdi: “Biz torpaqlarımızı geri alacağıq – sülh yolu ilə, ya da ki, müharibə yolu ilə. Birmənalı! Biz istəyirik ki, sülh yolu ilə bunu təşkil edək, sülh yolu ilə bunu alaq. Ermənistana axırıncı şans veririk, axırıncı şans! Heç kimə ümid bağlamasın. Heç kim onlara kömək etməyəcək”.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı,***
***YAP Nəsimi rayon təşkilatının sədri***